**Bu gün Azəbaycanın ən köklü mətbu orqanlarından biri olan "Xalq qəzeti"nin otuz mininci nömrəsi dərc edilir. Ümumiyyətlə, bu ilin avqust ayı qəzet üçün ikiqat əlamətdardır. Çünki həm yubiley nömrəsi, həm də 103-cü doğum günü məhz bu aya təsadüf edir. Keçmişə boylanıb baxanda, bu millətin, bir əsrlik tarixinə işıq tutan nəhəng bir qəzet və onun səhifələrində Azərbaycanın 100 illik ictimai-siyasi, mədəni həyatını görürük. Müxtəlif dövrlər qəzetin adının dəyişməsinə səbəb olsa da, daxildəki azərbaycançılıq ruhu, ana dili sevgisi böyük təsir və qadağalara rəğmən, heç vaxt əskilməyib.**

# Yüz üç il bundan əvvəl və sonra...

Zaman-zaman işlədilən "tarix qoxur" ifadəsi də məhz bu qəzetin kölgəsində mahiyyət qazanır. Bu millətin bir əsrlik tarixində nələr baş verməyib ki? Azərbaycan müstəqilliyini itirəndə də, qazananda da, latın qrafikalı yazı kirilə keçəndə də, yenidən əvvəlki halına qaytarılanda da, torpaqlarımız işğal ediləndə də, işğaldan azad olunanda da, ulu öndər hakimiyyətə gələndə də, Azərbaycan səriştəsiz liderlərin əlinə düşəndə də, Xocalıda insanlar qətlə yetiriləndə də, ermənilər Qarabağdan qovulanda da "Xalq qəzeti" bir ruha bürünüb Azərbaycan xalqının yanında dayanmış, baş verən hər şeyi silinməz yaddaşına həkk etmişdir. Burada kimlər, burada nələr yoxdur ki?

"Xalq qəzeti" buraxılmağa başlandığı gündən heç vaxt öz fəaliyyətini dayandırmayıb. Hər anında Azərbaycan xalqının və dövlətinin yanında olan bu mətbu orqan həm də ana dilimizin bir əsrlik inkişaf mərhələsinin ən böyük iştirakçılarından biri olmuşdur.

Dilimizin zənginləşməsində, müasirləşməsində misilsiz əməyi olan "Xalq qəzeti" hansı adla buraxılmasından asılı olmayaraq, hər zaman xalqın qəzeti olub. Hər zaman haqqın, ədalətin yanında yerini alan, xalqın gücünə arxalanan qəzet heç vaxt bu gücdən məhrum olmamışdır. Xalqımızın çətin günlərində dərdinə şərik olan, zaman-zaman insanların həmsöhbətinə çevrilən "Xalq qəzeti" də, dövlətimiz kimi, ən şanlı, ən parlaq günlərini Vətən müharibəsində qazanılan qələbələrlə yaşamış və yaşatmışdır. Azərbaycan xalqının, Azərbaycan dilinin və Azərbaycan dövlətinin qəzeti olan "Xalq qəzeti" böyük qələbədən sonra həm də "qalib" qəzetə çevrilmişdir.

Otuz ilə yaxın bir müddət ərzində işğalı, erməni vəhşiliklərini daim gündəmdə tutan, millətin qan yaddaşını daim yeni saxlayan 103 yaşlı qəzet Böyük Qələbəmizə bizimlə birlikdə sevindi, kədərimizə bizimlə birlikdə ağladı. Kim bilir, bəlkə həqiqətən də bir ruha bürünüb həmin gün aramıza qatılmışdı. Axı "Xalq qəzeti" Azərbaycanın bir parçasıdır, mətbuatın basılmaz bir qalasıdır.



Azərbaycan qəzetçilik ənənələrinin formalaşıb inkişaf etməsində əvəzsiz rolu olan "Xalq qəzeti" bu gün təkcə otuz mininci nömrəsinin sevincini yaşamır. Biz hamımız, həm də internetin, televiziyanın, ümumilikdə texnologiyanın bu qədər inkişaf etdiyi bir dövrdə dimdik ayaqda durmağı bacaran bu qəzetin səhifələrində yer almağın qürurunu yaşayırıq. Belə bir dövrdə xalqın etimadını və etibarını itirməmək, texnologiya dövründə belə, Azərbaycan həqiqətlərini ən doğru şəkildə insanlara çatdırmaq asan iş deyil. Bu mənada, tutduğu vəzifədən asılı olmayaraq, qəzet ruhunun ayaqda durması üçün əlindən gələni əsirgəməyən, bəzən gecəyarıya, bəzən sübhə qədər növbətçi olub yeni günün nömrəsini hazırlayan, insanları doğru və aktual xəbərlərlə, maraqlı məlumatlarla tanış edən yaradıcı kollektivi ən səmimi duyğularımla təbrik edir, hər birini ayrı-ayrılıqda bağrıma basıram. Qəzetimizə və onun timsalında bütün kollektivimizə uğurlar arzulayıram. Qəzet böyük dəyərdir. Onu qorumaq, mühafizə etmək və gələcək nəsillərə bu ənənəni çatdırmaq hər birimizin borcudur. Ümid edirəm ki, bu sarsılmaz qala hələ neçə on mininci nömrəsini qeyd edər və şanlı dövlətçilik tariximizin şahidi olar.

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin deputatı, akademik***